# KOLLOİD DİSPERS SİSTEMLƏR HAQQINDA

**Telman Ağdamski**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Orta məktəb kimya dərsliklərində kolloid sistemlər haqqında müəyyən məlumatlar verilir. Onlara bir qədər aydınlıq gətirməyi zəruri hesab etdik.

***Kolloid kimya bərk halda və məhlullarda heterogen yüksək dispers sistemlərin və yüksək molekullu birləşmələrin fiziki-kimyəvi xassələrini öyrənir.*** Kolloid kimya fazalar sərhəddi bölgüsündə səth hadisələrinin roluna xüsusi diqqət verir. Hazırda kolloid kimya kolloid sistemlərdə gedən yalnız kimyəvi quruluş və kimyəvi reaksiyalarla deyil, eyni zamanda fiziki quruluşla, fiziki xassələrlə yüksək dispers sistemlər və yüksək molekullu sistemlər üçün xarakterik olan fiziki-kimyəvi proseslərlə məşğul olur. Kolloid sistemlər təbiətdə geniş yayılmış və texnikada böyük əhəmiyyəti vardır.

Bu elmin inkişafı ilə yanaşı olaraq kolloid kimyəvi tədqiqat üsulları da işlənilmişdir. Bunlardan ultramikroskop, elektron mikroskop, ultrasentrifuqa, elektroqrez və b. göstərmək olar.

Kolloid sistemlərlə insanlar qədim dövrlərdən rastlaşsalar da onun tədqiqi ilə yalnız XIX əsrdən məşğul olmağa başlamışlar. Lakin kolloidlər haqqında təcrübi məlumatları Aristotelin, Əlkimyaçıların işlərində tapmaq olar.

XIX əsrin ortalarına qədər təbiətşünaslığın sürətli inkişafına baxmayaraq kolloidlərin öyrənilməsinə az diqqət yetirilirdi. Kolloid kimyanın əsasının qoyulmasında rus alimlərinin böyük əməyi olmuşdur. M.V.Lomonosovun əsərlərində (1751) məhlulların kristallaşması və koaqulyasiyası aydın şəkildə fərqləndirilmişdir. Suda və şüşədə kolloid məhlulların alınması üsulları və xassələri verilmişdir. Bir qədər sonralar T.F.Lovits (1789) ilk dəfə olaraq bərk adsorbent (kömür) üzərində məhlulların adsorbsiyasını kəşf etmişdir ki, bu hadisə də kolloid kimyaya əsaslanır. 1808-ci ildə Moskva Universitetinin professoru F.F.Reyss ilk dəfə olaraq xarici elektrik sahəsinin təsiri ilə dispers faza və dispers mühit hissəciklərinin hərəkət etməsini müəyyən etmişdir.

Kolloid kimya elminin nə ilə məşğul olduğunu aydın təsəvvür etmək üçün əvvəlcə kolloidlərin və ya kolloid sistemlərin nə olduğunu aydınlaşdırmaq lazımdır. 1845-ci ildə İtalya alimi Françesko Selmi müxtəlif məhlulları tədqiq edərək müşahidə etmişdir ki, bioloji məhlullar – süd, qan, linfa və b. öz xassələrinə görə adi həqiqi məhlullardan kəskin surətdə fərqlənirlər. Belə məhlulları o, **psevdo məhlullar, zollar** adlandırmışdır. Belə məhlullar işığı qüvvətli səpələyir, az miqdar maddələrin əlavə edilməsi ilə məhlulda həll olan maddələr çökür. F.Selmi sübut etmişdir ki, psevdo məhlulların həqiqi

məhlullardan əsaslı fərqi ondan ibarətdir ki, onların əmələ gəlməsi zamanı hissəciklərin öz-özünə xırdalanması müşahidə edilmir.

A.Faradey tərəfindən görülən işlər də əhəmiyyətli olmuşdur. Belə ki, ilk dəfə olaraq o, 1857-ci ildə "Faradey effekti" hadisəsini kəşf etmiş, qızıl kolloid zolunun alınması üsulunu işləmişdir. Kolloid kimyanın inkişafının klassik dövrünün başlanğıcı kimi İngilis alimi Tomas Qremin işləri (1861) qeyd edilməlidir. O qanuni olaraq kolloid kimyanın "atası" hesab edilir. "Kolloidlər" terminini və anlayışını elmə o daxil etmişdir. T.Qrem müxtəlif məhlulları öyrənərkən müəyyən etmişdir ki, bir qrup maddələr vardır ki, onlar sürətlə diffuziya edir, bitgi və canlı membranlardan keçirlər, asanlıqla kristallaşırlar. Başqaları isə olduqca zəif diffuziya edir, membrandan keçmir və kristallaşmayaraq amorf çöküntü əmələ gətirirlər.

Müxtəlif həll olan maddələrin diffuziya vaxtını müqayisə edərək HCl diffuziya vaxtını vahid qəbul edib T.Qrem biri-birindən fərqli qiymətlər almışdır:

| | |
|---|---|
| HCl | — 1,00 |
| NaCl | — 2,33 |
| $MgSO_4$ | — 7,00 |
| Şəkər | — 7,00 |
| Zülal | — 49,00 |
| Karamel | — 98,00 |

Bu misaldan görünür ki, məhlulları iki qrupa ayırmaq olar. Birinci qrupa NaCl, HCl, $MgSO_4$ və şəkər məhlulları aid olur ki, onlat yaxşı diffuziya edir, canlı və bitki məsamələrindən asanlıqla keçirlər (dializ). İkinci qrupa zülallar və karamel daxil olur ki, onlar zəif diffuziya edir və yarımkeçirici pərdədən keçmirlər. T.Qrem birinciləri **kristalloidlər**, ikinciləri isə **kolloidlər** adlandırmışdır. Beləliklə, bütün maddələri o, iki böyük sinfə ayırmışdır. Həqiqi məhlullardan fərqli olaraq kolloid məhlulları zollar adlandırmışdır. Kimyəvi maddələrin kolloidlərə və kristalloidlərə bölünməsi fikri ilə Kiyev Universitetinin professoru İ.Q.Borşov razılaşmayaraq T.Qremdən asılı olmayaraq kolloid hissəcik və kolloid məhlulların mahiyyətini açıqlamışdır. O, kolloid hissəciklərin kristallik quruluşa malik olması fikrini irəli sürmüş, kolloid mitsella haqqında müasir təsəvvürlərə yaxın mülahizələri, kolloid hissəciyin səthi ilə həlledici molekulları arası müəyyən əlaqələrin olmasını göstərmişdir.

Maddənin kolloid halı haqqında fikri başqa Rus alimi P.P. Veymarn inkişaf etdirmişdir. O, bir çox maddələri kolloid halında almağa müvəffəq olmuşdur. Göstərmişdir ki, sabunun suda məhlulu kolloid xassəyə malik olduğu halda, onu spirtdə həll etdikdə həqiqi məhlul xassəsinə malik olur.

Analoji olaraq kristalloid olan xörək duzunun suda məhlulu həqiqi məhlul olduğu halda, benzolda kolloid məhlul əmələ gətirir. Hazırda istənilən maddəni kolloid halında almaq mümkündür. Ona görə də, kolloid maddələr haqqında deyil,

maddənin kolloid halı haqqında danışmaq lazımdır.

Kolloid kimya elminin sonrakı inkişafı yeni tədqiqat üsullarının işlənilməsi ilə bağlı olmuşdur. Bunlara ultramikroskop (1904), rentgenstruktur analiz (1913-1916), elektron mikroskop və s. göstərmək olar. Bu dövrdə kolloid haqqında tədqiqatın ön cərgəsinə səthi sorbsuya hadisələrinin tədqiq edilməsi keçmişdir ki, bu sahədə rus alimləri A.A.Titovun (1910), N.A.Şilovun (1916), A.V.Dumanskinin işlərini qeyd etmək lazımdır. Kolloid sistemlərin davamlığı və koaqulyasiyası probleminin həll edilməsində Dyuklo, Freyndlix və b. apardıqları tədqiqatların xüsusi əhəmiyyəti vardır.

XIX əsrin 60-cı illərində kolloid sistemlərin bəzi xassələri artıq məlum olmuşdur.

1. Bütün kolloid məhlullar işığı səpələmək qabiliyyətinə malik olur. Bu *opalessensiya hadisəsi* adlanır. Hadisəni Tindal öyrəndiyindən ona *Tindal effekti, konusu* da deyilir. O, bu hadisəni işıq mənbəyi ilə məhlul arasında linza qoymaqla müşahidə etmişdir.
2. Kolloid məhlullarda kiçik osmos təzyiqi olur. Bu xassələr göstərir ki, kolloid məhlullarda nisbətən iri hissəciklər vardır.
3. Kolloid məhlullarda kiçik osmos təzyiqi ilə yanaşı olaraq diffuziya da olur, bu isə onların həqiqi məhlullardan fərqini göstərir.
4. Kolloid məhlullar dializ olunurlar, yəni yarımkeçirici pərdə vasitəsilə orada həll olan xırda hissəciklər ayrıla bilər. Dializ zamanı həll olan molekullar menbrandan keçir, kolloid hissəciklər isə yarımkeçirici pərdədən keçə bilmir. Bu xassəyə əsasən belə nəticəyə gəlmək olar ki, kolloid məhlullarda olan hisəciklərin ölçüsü molekulun ölçüsündən böyük olur. Məlumdur ki, həqiqi məhlullarda isə hissəciklərin ölçüsü molekulun ölçüsünə uyğun olur.
5. Davamlı həqiqi məhlullardan fərqli olaraq kolloid məhlullarda aqreqativ qeyri-davamlılıq (labil) xassə vardır. Ona görə ki, həll olan maddə asanlıqla məhluldan ayrılıb koaqulyasiya edir. Xarici təsir nəticəsində qızdırılma, soyudulma, qarışdırma: az miqdar maddənin əlavə edilməsi (koaqulyatorun) koaulyasiyaya səbəb olur. Aqreqativ qeyri davamlılıq həll olan maddənin miqdarı artdıqca çoxalır.
6. Kolloid məhlullarda elektroforez hadisəsi müşahidə edilir. Reyss tərəfindən 1808-ci ildə kəşf edilmiş bu hadisəyə əsasən göstərilir ki, kolloid hissəciklər elektrik sahəsində bu və ya digər elektroda doğru hərəkət edirlər. Lakin bu hadisə elektrolizdən fərqli prosesdir. Göstərmək lazımdır ki, kolloid sistemlərin yalnız maye halda olması vacib deyildir. Kolloid sistemlər qaz, bərk halda da ola bilər. Duman, tüstü, bulud, metalların kolloid məhlulları (Pt, Au, Ag), AgJ, $As_2S_3$, emulsiyalar, sabunlar və s. Kolloid sistemlər üzvi maddələrdən də təşkil edilə bilər. Borşov göstərmişdir ki, kolloid məhlullar kristallik quruluşa malik olur. XX əsrin əvvəllərində Rus alimi Veymarn

göstərmişdir ki, eyni bir maddə bir şəraitdə kristalloid, başqa şəraitdə isə kolloid xassə göstərir. Məs., kanifol spirtdə həll edildikdə həqiqi məhlul, suda həll edildikdə isə kolloid məhlul əmələ gətirir. Əksinə olaraq natrium xlorid suda həqiqi məhlul, benzolda isə kolloid məhlul əmələ gətirir. Beləliklə, kolloid maddə haqqında deyil, maddənin kolloid halı haqqında danışmaq daha düzgün olardı.

Aparılan tədqiqatlar göstərir ki, maddənin kolloid halı yüksək dispersləşmiş hal olub, ayrı-ayrı hissəciklər molekul olmayıb, aqreqatlardan təşkil edilir. Qeyd etmək lazımdır ki, bərk kolloid sistemlər adi şərairdə aqreqativ davamlıdırlar, ərimiş halda isə aqreqativ qeyri-davamlı ola bilər. Metallik ərintilər opalessensiya xassəsinə malik deyildirlər. Bəzi nadir metallar, rəngli ərintilər opalessensiya xassəsinə malik olurlar. Məs., rubin, opal və s. Yəqin ki, oppalessensiya hadisəsi və adi opalendən götürülmüşdür. Istənilən kolloid sistem dispers faza ilə dispers mühitdən təşkil edilir. Bir cismin başqa cismdə dispersiyasından ibarətdir.

Həqiqi məhlullardan fərqli olaraq kolloid məhlullarda heterogen faza əmələ gəlir. Beləliklə, kolloid kimyaya elm kimi tərif vermək olar.

**Koloid kimya – heterogen yüksək dispers sistemlərin xassələri və onlarda gedən prosesləri öyrənən elmdir.** (Kolloid yunanca kolla – yapışqan mənasını daşıyır).

Kolloid kimyaya verilən bu təriflə yanaşı Jukov tərəfindən verilən tərif bir qədər də dolğun hesab edilir:

**Kolloid sistemlərdə molekullar deyil, aqreqatlar olur. Koaqulyasiya aqreqatların birləşməsidir.**

*Kolloid kimya səth hadisələri əsasında yüksək dispers heterogen sistemlərin və eləcə də, yüksək molekullu birləşmələrin və onların məhlullarının xassələrini öyrənir.* Kolloid kimya iki - fizika və kimya elmlərinə əsaslanır. Buna görə də bu elmi yüksək heterogen dispers sistemlərin fiziki kimyası adlandırmaq daha məqsədəuyğundur. (Disperslik latınca – dağıdılmış, yayılmış mənasını daşıyır).

Kolloid kimyanın inkişafında müəyyən qrup birləşmələrin xüsusi rolu olmuşdur ki, onların molekulunun böyük ölçüsünə baxmayaraq, xassəcə kolloid sistemlərə oxşardır. Bunlar yüksək molekullu birləşmələrdir. Zülallar, sellüloza və b. maddələrin məhlullarında molekulların ölçüsü kolloid hissəciklərin ölçüsünə yaxın olur. Son illərin tədqiqatları göstərir ki, durulaşmış məhlullarda yüksək molekullu birləşmələr homogen sistem olur.

Kolloid sistemlər təbiətdə çox geniş yayılmışdır. Qalaktika, ulduzlar sistemi, kosmik fəza, kometalar və b. kolloid sistemlərdi. Atmosferdə olan buludlar, dumanlar da kolloid sistemlər olub, onların yaranması, dağılması səbəbləri burada öyrənilir. Mineroloji hadisə və proseslər meteoroloji hadisələr kolloid kimyəvi proseslərdir. Kolloidlərin təbiətdə əmələ gəlməsinə rast gəlinir. Təbiətdə dispersləşmə prosesi fəal şəkildə gedir. Okean və dənizlərdə baş verən hadisələr,

temperaturun kəskin dəyişməsi və b. təbiət hadisələri böyük gücə malik olub, dağ süxurlarının xırdalanaraq kolloid hissəcik ölçüsünə gətirib çıxarır. Bərk dağ süxurlarının mexaniki dispersləşməsinə əsas səbəblərdən biri suyun donması zamanı genişlənməsidir. Süxurlara daxil olan su orada donaraq süxurların xırdalanmasına səbəb olur. Torpaq mürəkkəb kolloid sistem olduğundan yerşünaslıqda kolloid kimyəvi üsulların tətbiqi nəticəsində torpağın münbitliyi artırılır. Bir neçə texnoloji proseslər, o cümlədən, liflərin rənglənməsi, rezinin, kauçukun istehsalı, əczaçılıq kimyası sənayesi, səthi fəal maddələrin alınması və b. kolloid kimyanın müxtəlif tədqiqat üsullarının tətbiqinə əsaslanır.

## İstifadə edilmiş ədəbiyyat:


1. Воюцкий С.С. Курс коллоидной химии. М., Химия, 1976.
2. Фридрихсберг Д.А. Курс коллоидной химии. Л., Химия, 1984.
3. Шелудко А. Коллоидная химия. М., Мир, 1984.
4. T.Ə.Ağdamski. Kolloid kimya. Dərslik. Bakı, ADPU, 2011
5. T.Ə.Bədəlbəyli-Ağdamski "Fiziki və kolloid kimya" dərslik. Bakı, ADPU, 2017, səh.639

*Телман Агдамски*

**О коллоидных дисперсных системах**

**РЕЗЮМЕ**

В статье сообщаются сведения о предмете коллоидной химии, развитии, оптике коллоидных систем, их принадлежности к свойствам молекулярной кинетики.

Дана научная формулировка коллоидной химии, показывающей разницу между коллоидными и истинными растворами.

Описывается широкое растпространение коллоидных систем в природе, их роль в технике и экологии.

*Telman Aghdamski*

**Colloid – dispersed systems**

**SUMMARY**

The paper deals on the subject of colloidal chemistry, its development, optical, molecular kinetic properties of colloidal systems.

The differences between colloidal and natural solutions, and also scientific definition of the colloidal chemistry are given in the paper.

It's also described the wide spread use of colloidal systems in nature, their roll in the texnigue and ecology.

**Açar sözlər:** dispers faza, dispers mühit, koaqulyasiya, diffuziya, aqreqat, elektroforez.

**Ключевые слова:** дисперсная фаза, дисперсная среда, коагуляция, диффузия, агрегат, электрофорез.

**Key words:** dispersed phase, dispers medium, coagulation, diffusion, aggregate, electrophoresis.